*AMEA Nəsimi adına Dilçilik İnstitutu,*
*Dilçilik araşdırmaları, 2023, №3* *ISSN: 2664-5432*
*Səhifə: 156-162*
*http://doi.org/10.59849/2664-5432.2023.3.156*

## NƏZƏRİ DİLÇİLİK

**GÜNEL MİRZƏYEVA** [*]

# MÜASİR AZƏRBAYCAN POEZİYASININ DİLİNDƏ "QARABAĞ" VƏ "ZƏFƏR" KONSEPTLƏRİ

**XÜLASƏ**

Məqalədə koqnitiv dilçiliyin əsas tədqiqat obyektlərindən biri olan "konsept" anlayışı, eyni zamanda, müasir Azərbaycan poeziyası əsasında "Qarabağ" və "Zəfər" konseptləri geniş şəkildə təhlil olunmuşdur.

Azərbaycan poeziyasında Qarabağ mövzusu hər zaman aktuallıq kəsb etmişdir. Ötən əsrin 90-cı illərində Azərbaycan poeziyasında vətən, yurd sevgisi, müharibə, xüsusilə Qarabağ mövzusu önəmli yer tutmuşdur. Sabir Rüstəmxanlı, Bəxtiyar Vahabzadə, Cavidə Məmmədova, Ramiz Rövşən, Famil Mehdi, Qabil, Nəriman Həsənzadə kimi yaşlı və orta nəslə mənsub sənətkarlarımızın, o cümlədən gənc ədəbi nəslin yaradıcılığında bu mövzular poetik əksini tapmış, qiymətli sənət nümunələri yaratmışlar. 2020-ci ilə qədər torpaq itkisi, vətən həsrəti mövzusu üstünlük təşkil edirdisə, bu gün böyük qələbəmiz Azərbaycan ədəbiyyatına Zəfər mövzusunu gətirmişdir.

**Açar sözlər:** *Qarabağ, koqnitiv dilçilik, konsept, poeziya, müharibə, zəfər.*

*Konsept* - koqnitiv dilçiliyin əsas sahələrindən biridir. İnformasiyanı saxlayan və ötürən əsas təfəkkür vahidi olan konseptlə bağlı müasir koqnitiv dilçilikdə rus dilçilərindən Y.S.Stepanovun, S.Q.Vakaçovun, D.S.Lixaçovun, V.A.Maslovanın və b. alimlərin müxtəlif fikirləri var. *Konsept* terminінə ilk dəfə XX əsrin rus dilçisi S.A.Askoldovun əsərlərində rast gəlirik. Azərbaycan dilçiliyi ilə müqayisədə rus dilçiliyində poeziyaya linqvokulturoloji baxışlar daha əvvəllərdən mövcuddur. Belə ki, poeziyada linqokulturoloji variantların nəzəri aspekti poetik linqvistika istiqamətində A.A.Potebnyanın əsərlərində əks olunmuşdur. A.A.Potebnya "Düşüncə və dil" kitabında dilin poetikliyini rəmzi anlayışlarla bağlayır. O yazır: "Dilin simvolizmi, görünür, onun poetikliyi adlandırıla bilər; əksinə, daxili formanın unudulması nəsr dilinə gətirib çıxarır. Əgər bu müqayisə həqiqətdirsə, onda sözün daxili formasındakı dəyişmələrə dair məsələ dilin şeirə və nəsrə, yəni ümumilikdə ədəbi formaya münasibəti məsələsi ilə eyniləşər" [Потебня:1989, c.160].

Z.Əliyeva *konsept* anlayışına koqnitiv dilçilik kontekstindən nəzər salaraq sözün konseptual bilgiləri ifadə etmək vasitəsi kimi insana təfəkkürü dərk etmək, başa düşmək imkanı yaratdığını, konseptin sözlə ifadəsinin onun hamı tərəfindən başa düşülən, dərk edilən olduğunu yazır [Əliyeva: 2022, s.5].

Müasir Azərbaycan dilinin konseptlər səviyyəsində öyrənilməsində dilin müxtəlif laylarına konseptual yanaşma tələb olunur. "Müasir koqnitiv linqvistikanın xüsusiyyətlərinə aşağıdakılar aid edilir: koqnitiv linqvistikanın mənbələri; əsas anlayışları (konseptuallaşma, kateqoriyalaşma, konsept, koqnisiya və s." [Kazımov: 2022, s.76]

Dilin bədii üslubuna aid nümunələrin konseptlər şəklində linqvistik təhlili həm də dildə ətraf aləmin əksi kimi kateqoriyalaşmasını özündə ehtiva edir. "Bir dilin qrammatikası onun

[*] AMEA Nəsimi adına Dilçilik İnstitutu, Türk dilləri şöbəsi, filologiya üzrə fəlsəfə doktoru, dosent.
*E-mail: gunel-mirze@rambler.ru*

daşıyıcılarının konseptuallaşma, kateqoriyalaşma bacarığı əsasında istifadə etdiyi simvolik ehtiyatlar sistemini təqdim edir" [Əliyeva: 2022, s.20]. Simvolik ehtiyatlar sisteminin daha zəngin ifadə olunduğu dil üslubu isə bədii üslüb, xüsusilə poeziya dilidir.

Müasir Azərbaycan poeziyasında Qarabağ mövzusu hər zaman aparıcı olmuşdur. "XX əsrin sonu Respublikamızda ictimai-siyasi hadisələrin təbəddülatları, siyasi quruluşun dəyişməsi, Vətənimizin müstəqilləşməsi, həmçinin keçid dövrünün ağrıları ilə tarixə qovuşdu. Əlbəttə, bunlar asan başa gəlmədi. İyirmi illik müstəqilliyimizin ilk on ili ağır, müharibə, gərginlik illəri kimi yadda qaldı" [Bərdəli: 2014, s.6]. Müxtəlif şairlərin dilindən gətirilən nümunələr də bunu göstərir. Qətiyyətlə deyə bilərik ki, müstəqillik illərində poeziyamızda Qarabağ mövzusunda yazmayan şair yoxdur. Belə ki sənət materialı kimi dil bədii funksiyaları işə salır. Çünki "Poetik əsər, sözsüz, özündə sadəcə dili deyil, hər şeydən əvvəl, dildə ifadə olunan düşüncə və hissləri əks etdirir" [Винокур: 1997, c.178-201].

90-cı illərdə baş vermiş hadisələr, xalqın keçirtdiyi acılı günlər ədəbiyyatda da diqqətsiz qalmadı. Qarabağ, müharibə mövzusu nəinki həmin illərdə, eləcə də çağdaş dövrdə poeziyanın əsas mövzuna çevrildi.

B.Vahabzadə, Z.Yaqub, N.Kəsəmənli, S.Rüstəmxanlı, Ə.Quluzadə, M.Araz və başqaları öz şeirlərində Qarabağı yanğılı, ağrılı bir dillə qələmə almışlar. Bunlarla yanaşı, Cavidə Məmmədova, Məşədixanım Nemət və başqaları da bu mövzuda şeirlər yazmışlar. Şeirlərin bir qismində müharibənin faciəvi mənzərələri müxtəlif yozumlarla bədii təcəssümünü tapmış, poeziyanın əsas predmetinə çevrilmişdir. Ümumiyyətlə, o dövrdə şairlərin yaradıcılığında müharibə əzmkarlığı - yəni, sınmamaq, qisas almaq hissləri daha qabarıq idi. "Müharibə insanın içindəki ağrını, daşıdığı həyat yükünü ifadə eləmək baxımından 2000-ci illər poeziyasının mövqeyi daha sərt və psixoloji nüans səhihliyi ilə təhlilə gəlir. Bu ağrı simvolikası ədəbiyyatımızın orta və yaşlı şairləri ilə bahəm Z.Əzəmət, M.Köhnəqala kimi nisbətən cavan şairlərin mətnlərində bədii təcəssümünü tapır." [Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı: 2016, s.529]. Gənc şairə Cavidə Məmmədova "Yeddi qəlbin eşqi" kitabında Xocalının necə yerlə yeksan olunduğunu öz şeirində belə əks etdirmişdir:

*Ana yurdum , nələr gəldi başına?*
*Qəsd etdilər torpağına ,daşına.*
*Bir dəhşət də yazıldı yaddaşına,*
*Hər dəhşətdən dəhşət oldu Xocalı,*
*Düşmənlərə tapdaq oldu Xocalı.*

(Cavidə Məmmədova, "Xocalı", s.18)

Ötən əsrin 90-cı illərində Azərbaycan poeziyasında vətən, yurd sevgisi, müharibə, xüsusilə Qarabağ mövzusu önəmli yer tutmuş və bu şeirlərin fəlsəfi yükü üstünlük təşkil etmişdir. Poeziyada vətən və vətənpərvərlik mövzusu ənənəvi xarakter daşısa da, müstəqillik dövründə bu, fərqli məcra almışdır. Milli azadlıq hərəkatı, müharibədə baş verənlər və qaçqınlıq, ondan əvvəl baş vermiş köçkünlük, didərginlik həyatı - bütün bunlar poeziyada müxtəlif aspektlərdə öz əksini tapmışdır. "Müharibənin özü ilə gətirdiyi acıları həyatlarında, mənəvi dünyalarında bu və ya digər formada yaşamış olanlar poeziyanın lirik qəhrəmanına çevrilirlər: milli qəhrəman, şəhid əsgər, şəhid anası, qaçqın, mənfi mənada vətən xaini, satqın siyasətçi, mənəvi-psixoloji mənada özünü və Tanrısını arayan insan və s." [Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı: 2016, s.529] Qeyd edək ki, müharibə, mübarizə, bu nuansların orta-

ya çıxardığı mədəni, mənəvi-psixoloji, sosial durumlar linqvokulturoloji aspektdə konsept şəklində ədəbiyyatda təzahür edir.

İ.Kazımov söz-konseptləri xarakterizə edərək yazır: "Söz-konseptlər dünyanın dil mənzərəsinin əsas vahididir. Müasir linqvistikada aktiv şəkildə dil və söz millətin mədəni kodudur, kommunikasiya və dərketmənin silahıdır" [Kazımov: 2022, s.79].

Araşdırılan dövrün poetik mətnlərində mübarizə ruhu ilə bərabər, milli kədər və hüzün də bu konseptdə aparıcı xətt olmuşdur. Ümumiyyətlə, XX əsrin 90-cı illərinin poeziyası vətənpərvərlik və savaş ruhunun əks olunması ilə xarakterizə edilir. Ancaq bu vətənpərvərlik əvvəlki bədii numunələrdəki ilə eyni olmayıb, yeni, tamamilə fərqli xüsusiyyət qazanır. Akademik N.Cəfərov bu dövrün poeziyasını təhlil edərkən belə qənaətə gəlir ki, "Bəxtiyar Vahabzadə, Xəlil Rza və Sabir Rüstəmxanlı xüsusilə məlum hadisələrin qızğın vaxtlarında döyüşən qüvvə idilər – bu döyüşdə B.Vahabzadə qlobal "tərəddüdlər"i ilə öz yazıçı fenomeninə sədaqətli idi və eyni dərəcədə sədaqət (ancaq şübhəsiz, fərqli-fərqli keyfiyyətlərdə) X.Rzanın və S.Rüstəmxanlının da fəaliyyətində özünü göstərirdi: hətta bu halda da yazıçı fenomeni siyasi-ideoloji məzmun kəsb etməsi – nə B.Vahabzadə, nə X.Rza, nə də S.Rüstəmxanlı ideoloq, siyasi xadim olmalıdır və ola da bilməzdilər, çünki onların yazıçı stixiyası ideoloq, geniş mənada "diplomat" stixiyasından güclü idi və bu, ümummilli mənəvi-psixoloji potensiala əsaslanırdı"[Cəfərov: 2004, s.198]. Qarabağ, zəfər konseptləri şairlərin yaradıcı təfəkküründə etnik və mədəni dəyərlərlə qovuşur. Qarabağda baş verənlər şairləri də iki yerə ayırmışdı: optimist düşünərək zəfərə inananlar və bunu poetik dillə canlandıranlar; pessimistliyə qapılıb, öz əsərlərində sadəcə ağrı-acını qabardanlar, faciələrin ağırlığı altında, gələcəyə ümidi itirərək yazanlar.

Milli ruhun hakim olduğu, mübarizənin qabarıq şəkildə biruzə verdiyi müasir Azərbaycan poeziyasında digər mövzular kölgədə qalmış, vətən məhəbbəti, itki, kədər, torpaq itkisi, mübarizə, torpaq uğrunda mübarizə ilə əvəzlənmişdir. Lakin bu mövzularda yazılan şeirlərdə də hər zaman milli humanizm aparıcı xətt olmuşdur. Qeyd edək ki, müstəqillik dövrü poeziyasında milli humanizm anlayışı da dəyişmiş, yalnız dost və qardaş xalqlara qarşı humanizm ifadə edən Azərbaycan şeirində düşmən nifrət və mübarizə ilə anılır. Şəhid və qazilər, müharibənin müsibətləri Qarabağ konsepti kontekstində əks olunur. XX əsrin 90-cı illərində bu konseptin bədii təzahürü ən çox B.Vahabzadə, M.Araz, X. R.Ulutürk və S.Rüstəmxanlı yaradıcılıqlarında özünü göstərir. Bu mövzular onların poetik irsinin leytmotivinə çevrilmişdir.

*Şəhidlik ömrün tacı,*
*Şəhiddi baş tacımız,*
*Şəhiddi neçə-neçə qardaşımız,bacımız.*
*Allah üz döndərəndə şəhidlik əlacımız.*
*Bir candı, qaytarırıq –elə də minnət deyil.*
*Qoy tarix yenə görsün, bu adi millət deyil!*

(S. Rüstəmxanlı, "Bu, adi millət deyil", s.90)

Bir əsrdə dörd dəfə didərgənlik yaşayan soydaşlarımızın fiziki və mənəvi ağrı-acıları poeziyamızın canına, qanına işlədi. B.Vahabzadənin, C.Novruzun, S.Rüstəmxanlının, Z.Yaqubun, N.Kəsəmənlinin əsərlərində bu sosial-mədəni faciə müəllifin ruhi aləminin harayı kimi sözə, misraya çevrilmişdir. Müstəqilliyin ilk illərində Azərbaycan poeziyasında Qarabağ müharibəsi, vətən, mübarizə mövzusunda yazılmış şeirlərdə kədər hissi güclü idisə, daha

sonrakı illərdə yazılmış uğur, zəfər, qələbə ruhlu şeirlərdə isə mübarizlik əzmi özünü göstərir.

Şair Asim Yadigar "Zəfər yolu" poemasında Azərbaycan xalqının qələbə sevincini, zəfərini misralarda belə ifadə edir.

*Soldurub baharını, gətirdik sərt qışını,*
*Axıdıb bu yerlərdə düşmənin göz yaşını,*
*Dəmir yumruqla əzdik onun murdar başını.*
*Bu yol qeyrət, cəsarət, bu yol hünər yoludur,*
*Bu yol Şuşaya gedir, bu yol Zəfər yoludur!*

*Ali Baş Komandanım, yaşa, var ol, yüz yaşa!*
*Saldığın Zəfər yolu tamaşadır, tamaşa,*
*Bu yolu tutmalıyıq başdan-başa qumaşa.*
*Bu yol ata arzusu - bu yol Öndər yoludur,*
*Bu yol Şuşaya gedir, bu yol Zəfər yoludur!* (A. Yadigar. “Zəfər yolu”)

[Ədəbiyyat qəzeti: 2021, s.21.]

Əsərlərinin ədəbi-bədii dili, üslubi baxımdan analizi göstərir ki, həm birinci Qarabağ müharibəsinə, yəni problemin kökü və onun ilk mərhələsinə dair əsərlər ortaya qoyulmuş, həm də müharibənin ikinci və əsas, həlledici mərhələsi olan Vətən müharibəsi və parlaq Zəfərimizə aid əsərlər yazılmışdır. Bu gün Qarabağ şeirləri türk birliyindən, qalibiyyətdən və şəhidlərimizin Qarabağ torpaqlarında axan müqəddəs qanlarından ucalaraq, misra-misra, bənd-bənd, səhifə-səhifə yazılır. Müharibə günlərində qələm sahibləri xalqımızın dərdinə, acısına öz münasibətini bildirmişdir. Əvvəlki illərdə müasir ədəbiyyatımızda Qarabağ mövzusu daha çox ağrı-acıların, itkilərin, faciələrin təsviri idisə, zaman irəlilədikcə xalqımız mübarizələrdən üzü ağ çıxmış, azadlıq arzularına qovuşmuş, şeirimizin əsas mövzusu da zəfərə, qələbəyə istiqamətlənmişdir. R.Məcid “Xarı bülbül” şeirini Zəfərdən əvvəl qələmə alınmışdır. Bu poetik nümunədə həm həsrət, həm ümid sintez şəklində bədii təcəsümünü tapmışdır.

*Yenə köməyim ol bu çətin anda,*
*Tapım o gördüyüm axarı, bülbül.*
*Qaytar o əvvəlki səadətimi,*
*Qaytar bəxş etdiyin baharı, bülbül.*
*Gəzim qarış-qarış, addımbaaddım,*
*O gözəl, o əziz diyarı, bülbül...*
*Xarı bülbül!* (R.Məcid)

Müstəqillik dövrü Azərbaycan poeziyasının ən parlaq simalarından olan Z.Yaqubuu daim düşündürən mövzular vətən, xalq, Qarabağ mövzusu olmuşdur. Z.Yaqubun Qarabağ, Vətən mövzulu şeirlərini təhlil edən akademik İ.Həbibbəyli yazır: “...Zəlimxan Yaqub müstəqillik uğrunda mübarizənin keşməkeşli hadisələrini sadəcə müşahidə etmir, o, daim irəli baxır, işığa doğru yol gedir, oxucularını da var gücü ilə bu günə və sabaha inam duyğuları üstündə kökləməyə çalışır. “Dur ayağa, məmləkətim”, “Qələbə”, “Kəlbəcərdən gələn qarı”, “Əsgər qardaşıma məktub” – deyə haray salan şairin böyük qələbəyə inamı da böyükdür:, “Layla, Xocalım layla”, “Bu gecə yuxuma girmişdi Şuşa”, “Şəhid qanı” və s. şeirlərində müstəqilliyin çətin və şərəfli yollarını bacarıqla əks etdirmişdir” [Həbibbəyli: 2007, s.394]

44 gün sürən ikinci Vətən-Qarabağ müharibəsi torpaqlarımızın azadlığı ilə bərabər, Azərbaycanın bütün sahələrinə bir zəfər, uğur gətirdi. Qeyd etmək lazımdır ki, Vətən həsrəti, müharibə və zəfər poeziyaya çoxçalarlı rəng qatmışdır. "Ən son poeziyamızı 90-cı illər poeziyası ilə müqayisə edəndə iki dəyişən əsas mövzu görmək olur. 90-cı illərdə torpaq itkisi mövzusu üstünlük təşkil edirdisə, bu gün bu mövzu Torpaq azadlığı mövzusu ilə əvəz olunub və elə bu da Azərbaycan ədəbiyyatına zəfər, qələbə mövzusu gətirdi"[Nəcəfova: 2021, s.80].

Şairə Adilə Nəzərin "Bu zəfərin mübarəkdir, ey Vətən" şeirində millətin sevincə, qələbəyə təşnə olan ürəklərin ruhi təntənəsi öz ifadəsini tapmışdır. Böyük Qələbənin doğurduğu qürurdan, bəşəri-humanist duyğulardan təsirlənən şairənin gözündə Vətən qəhrəmanı obrazında ən yüksək məqam ucalaraq, qüvvətin, fəxarətin, ədəbiyyatın ən bariz simvoluna çevrildi.

*Qürurluydu bu Qarabağ səfəri...*
*Bu torpağın hər oğlu, hər nəfəri,*
*Qanımızla qazanmışıq zəfəri,*
*Bu zəfərin mübarəkdir, ey vətən!*

*Şuşamızda dağlar başı dumanlı,*
*Daha bir də kimsə olmaz gümanlı,*
*Qazin rəşadətli, şəhidin sanlı,*
*Bu zəfərin mübarəkdir, ey vətən!*

*Xarı bülbül gələr bu yaz səcdənə,*
*Dursam min il, yenə də az səcdənə,*
*Dayanıbdı bütün Qafqaz səcdənə,*
*Bu zəfərin mübarəkdir, ey vətən!* (A. Nəzər, "Bu zəfərin mübarəkdr, ey Vətən")

Poeziya nümunələrində xalqımızın yaşadığı 44-günlük müharibə dövründə zəfər çalan döyüşçü əsgərlərimizin vətən uğrunda mübarizəsi, Vətən sevdalılarının obrazları canlandırılmışdır. Vətən müharibəsindən sonra yazılan və çap olunan ilk poema - mSabir Rüstəmxanlının "Qarabağa dönüş" poeması keçmişlə bu günü birləşdirir, hadisələr tarixlərin qovşağında təsvir olunur:

*Yad əllər parçaladı, böləndükcə-böləndük,*
*Küləklərdə sovrulduq, ələklərdə ələndik,*
*Çökdü bir qara zülmət, yurdumun üzərinə,*
*İşıqlı günlər dedik, qara demək yerinə...* ( S.Rüstəmxanlı)

Müstəqillik dövrü Azərbaycan poeziyasında "Qarabağ" və "Zəfər" konseptləri ifadə etdikləri semantik sahələrin çoxçalarlılığı ilə diqqəti cəlb edir. Bunu da qeyd etmək lazımdır ki, təhlil etdiyimiz zəngin yaradıcılıq nümunələrində bu konseptlər məkan, zaman və insan müstəvisində, həm də milli və bəşəri kontekstlərdə öz əksini tapmışdır. Xüsusi olaraq onu vurğulamaq lazımdır ki, "Qarabağ", "Zəfər" konseptlərinin təməlində azadlıq, Vətən sevgisi dayanır. Ümumilikdə bu həm də xalqın təfəkkür tərzinin ifadəsi kimi özünü göstərir.

Poeziyamız son 30 ildə Qarabağ üstündə kökləndi. Baş verənlər, ölüm-dirim savaşı, bütün nəsillərə örnək olan qəhrəmanlarımız, şəhid oğullarımız, otuz illik həsrətdən doğan yurd sevgisi, Qələbəyə inam müasir şeirimizin əsas motivlərinə çevrildi. R.Məcid, Qulu Ağsəs, İlham Qəhrəman 90-cı illərdə Qarabağ,Vətən, yurd mövzulu şeirləri övqatı, əhval-ruhiyyəsi ilə fərqlənir.

## ƏDƏBİYYAT


1. Adilə Nəzər. Bu zəfərin mübarəkdr, ey Vətən. https://kulis.az/xeber/senet/Bu-gec-nfsini-hiss-etdim-anidn...-colorredAdil-Nzrdn-yeni-seirlrcolor-35347
2. Bərdəli B. Müstəqillik dövrü Azərbaycan poeziyası. Bakı, Elm və təhsil, 2014, 128 s.
3. Cəfərov N. Klassiklərdən müasirlərə. Bakı, Çaşıoğlu, 2004, 272 s.
4. Ədəbiyyat qəzeti. 2021.- 18 sentyabr.- s.21.
5. Əliyeva Z. Dil sisteminin konseptuallaşma və kateqoriyalaşma problemləri. Bakı, "Zərdabi Nəşr", 2022, 320 s.
6. Həbibbəyli İ. Ədəbi-tarixi yaddaş və müasirlik, Bakı: Nurlan,2007, s.696
7. Kazımov İ. Koqnitiv leksikologiya. /Müasir Azərbaycan dili. II c. Leksikologiya. Bakı, "Zərdabi Nəşr", 2022, 1152 s.
8. Quliyev H. Koqnitiv dilçilikdə "konsept" anlayışı. https:// www.researchgate.net/publication/347927792_KOQNITIV_DILCILIKD_KONSEPT_ANLAYISI
9. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. II cild. Bakı, "Elm və Təhsil", 2016, 1088 s.
10. Nəcəfova M. Poeziyamızın Qarabağ savaşı – Vətən müharibəsi, Bakı, "Elm və təhsil", 2021, 272 s.
11. Rüstəmxanlı S.. Qarabağa dönüş. https://edebiyyatqazeti.az/news/poeziya/6662-qarabaga-donus
12. Потебня А. А. Мысль и язык. / Из книги: Потебня А.А. Слово и миф. Москва, Издательство « Правда» , 1989, с.160.
13. Винокур Г.О. Об изучения языка литературных произведений // Русская словесность. От теории словесности структуре текста. Антология. Москва, 1997, с.178-201


**Gunel MİRZAYEVA**

## THE CONCEPT OF «KARABAKH» AND «VICTORY» IN THE LANGUAGE OF MODERN AZERBAIJAN POETRY


### SUMMARY

The article analyzes one of the main objects of the study of cognitive linguistics "concept", as well as the concepts "Karabakh" and "Victory" based on modern Azerbaijani poetry. The theme of Karabakh has always been relevant in Azerbaijani poetry. In the 90`s of the XX century, the theme of the Motherland, love for the Motherland, especially Karabakh war, occupied an important place in Azerbaijani poetry. Our poets of the older and middle generation, such as Sabir Rustamkhanli, Bakhtiyar Vagabzade, Javida Mammadova, Ramiz Rovshan, Famil Mehdi, Gabil, Nariman Hasanzade, as well as the younger literary generation, poetically reflected these themes in their works. If until 2020 the themes of loss of land and homesickness prevailed, today our great victory has brought the theme of Victory to Azerbaijani literature.


**Key words:** *Karabakh, cognitive linguistics, concept, poetry, war, victory.*

**Гюнель МИРЗОЕВА**

## КОНЦЕПТЫ «КАРАБАХ» И «ПОБЕДА» В ЯЗЫКЕ СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ПОЭЗИИ

### РЕЗЮМЕ

В статье анализируется как один из основных объектов исследования когнитивной лингвистики, понятие «концепт», а также концепты «Карабах» и «Победа» на основе современной азербайджанской поэзии. Тема Карабаха всегда была актуальна в азербайджанской поэзии. В 90-е годы прошлого века темы Родины, любви к Родине, войны, особенно Карабаха, занимали важное место в азербайджанской поэзии. Азербайджанские поэты старшего и среднего поколения, такие как Сабир Рустамханлы, Бахтияр Вагабзаде, Джавида Мамедова, Рамиз Ровшан, Фамиль Мехди, Габиль, Нариман Гасанзаде, а также молодое литературное поколение поэтически отразили эти темы в своих произведениях. Если до 2020 года преобладали темы потери земли, тоски по родине, то сегодня наша великая победа привнесла в азербайджанскую литературу тему Победы.

**Ключевые слова:** *Карабах, когнитивная лингвистика, концепт, поэзия, война, победа.*